ədalət.- 2022.- 23 iyul.- S.5.



Tofiq
ABDİN

## BƏLKƏ... BİR DAHA ŞEİR YAZMADIM

*bəlkə... bir daha şeir yazmadım
yazmamağımın min bir nədəni var
bəlkə
min birdən də çox
minindən biri
bu dünyadan gedəndə
onları tapşıra biləcəyim
kimsəm yox!!!!!!!!!*

***

*ömrün bu çağına gəlib çıxdım ki
məni ağlayanlar ağlamasınlar
uzanan günlərin içindən çıxıb
açıq gözlərimi bağlamasınlar*

*allah sevgidənmi yaşatdı məni
yoxsa, bu cəzamı,
dostdan, tanışdan
ayırıb
bir ayrı dünyada oyatdı məni*

*oyanıb dünyanı yuxulu gördüm
gözümü açmamış
iməkləməmiş
anamsız dünyanı yıxılı gördüm...
buludundan qorxdum, çayından qorxdum
başımın üstündə fır-fır fırlanan
qarğışından qorxdum, vayından qorxdum
məni sevənlərin sayı azaldı
mənə nə oldusa
döz, dur dedilər
sənin alın yazın bütün olanlar...*

*bu yazı mənimlə ölsəydi barı
rahat yaşayardı mənsiz qalanlar*

***

*nə günəş isidir
nə panel evlər...
ömrümün bu çağını
belə düşünməmişdim
əlimdən tutan əl yox
bakının ən soyuq günündə
belə üşüməmişdim
bu itkilər diksindirmir insanları
bu itkilər insanlarçün itki deyil
bəs nədi
ömrüm daşa, divara yox
bir yad səsin acısına dirəndi
bu yazımı
yoxsa tale
daş bağlanmış ayağımdan çəkir geri
bir yerlərə çıxa bilsəm
unutsam bu günləri
bir daha qayıtmaram
bu günlərə,illərə
ki,
keçim namərd əllərə...*

***

*bu qorxu o tindəymiş
həmən qarşıma çıxdı
çıxıb bir yad gözündən
həmən içimə axdı*

*mən necə görməmişəm
mən necə kor olmuşam
bu yaşda bu qorxunu
içimə doldurmuşam*

*ha çapala, ha vuruş
ata bilmərəm onu
heç belə gözləmirdim
mən ömrümün sonunu*

*yazıq ömrümə yazıq
məni güdürmüş bu şər
atalar düz deyirmiş
qorxan gözə çöp düşər*

***

*bu yaşda sevmək üçün
havalanmaq gərəkdi
bu yaşda sevmək üçün
sevdalanmaq gərəkdi*

*o da mənim əlimdə
bu da mənim əlimdə
ortada ağlın gücü
adın mənim dilimdə*

*adına od düşəcək
içimdəki alovdan
üz tutacaqsan mənə
bir gün söküləndə dan*

*çətin gəlib çıxasan
ayrılığın içindən
durmusan durduğun yerdə,
yad adam var içində...*

*gəlib çıxa bilməzsən
ayrılıq yaşayırsan
sən elə gəlirsən ki,
gedənə oxşayırsan...*

***

*hara gedir bu məmləkət görəsən
gedir şellənə-şellənə
qarşıdan bir bəla gəlir
aman yellənə-yellənə*

*adamları adamlıqdan çıxıbdı
boyunbağı körpüləri taxıbdı
öz əliylə öz evini yıxıbdı
yollarını daş- kəsək yox
sular tutub
sular sellenə-sellənə*

*sözlərinə heç bir məhəl qoyan yox
təklənibdi bir kimsədən həyan yox
tikənindən dağıdanı daha çox
danışmağa dili də var
eşitmirlər
qalıb dillənə-dillənə*

*yaman uzun sürdü bu alış-veriş
zamana sığmayır bu vaxtsız gərdiş
xeyrə yozulmayır bu gediş-gəliş
bizsə qalmışıq ortada
hələ küllənə-küllənə*

*küçələri gül-çiçəyə bürünür
adamları yaşamır ki, sürünür
kimsə bilmir sabah necə görünür
gözlər ora millənib
qalıb millənə-millənə...*